# "YAY Gallery" ölkəmizi Parisdə "Art Paris Art Fair" müasir incəsənət sərgi-yarmarkasında təmsil edir



Parisdə "Grand Palais"də nüfuzlu və çox sevilən "Art Paris Art Fair" müasir incəsənət sərgi-yarmarkasında ölkəmizi "YAY Gallery" təmsil edir.

Sərgi-yarmarkada Azərbaycanda müasir incəsənətin ictimai dərki və incəsənətimizin ölkə daxilində və beynəlxalq səviyyədə təbliği ilə məşğul olan YARAT Müasir İncəsənət Məkanının təsisçisi və bədii rəhbəri Aida Mahmudovanın əsərləri sərgilənir.

Sent Martins İncəsənət və Dizayn Mərkəzi kollecinin məzunu Aida Mahmudovanın əsərləri Bakı ilə yanaşı, dünyanın bir çox ölkələrində geniş sərgilənib. Rəssamın dəniz mənzərələri "VITA VITALE" qrup sərgisinin bir hissəsi kimi 56-cı "Venesiya Biennalesi" sərgisində təqdim olunub. Onun heykəltəraşlıq instalyasiyaları və rəsmləri bir çox beynəlxalq sərgilərdə nümayiş etdirilib və dünyanın müxtəlif yerlərində fərdi kolleksiyalarda saxlanılır.

Azərbaycanlı rəssamın əsərləri əsasən nostalji hisslər və yaddaş mövzusunda qurulur. O, öz yaradıcılığında təbiətdən və anadan olduğu Azərbaycandan, Abşeron mənzərələrindən ilham alır. Rəsm silsilələrində A.Mahmudova sanki anilik ideyasını araşdırır. Əsərlər daimi və sürətli dəyişikliklərə məruz qalan bir arxa planı - Azərbaycanın təbii şəraitini, şəhər mühitinin lirik ab-havasını görməyə və hiss etməyə imkan verir. O, diqqətdən kənar yerli və bəzən unudulan mənzərələri əsərinin ön planına yerləşdirməklə, Vətəninin müxtəlifliyini təsvir edir. Onun zərif nostalji hisslər ilə aşıb-daşan əsərlərində şəhər və Abşeron mənzərələri ilə əlaqədar sosial-antropoloji baxışlar öz əksini tapır.

Parisdə "Grand Palais"də nüfuzlu "Art Paris Art Fair" sərgi-yarmarkasında Aida Mahmudovanın "10 am, 2015", "24 hours, 2015", "From noon till five, 2015", "Towards the evening, 2015", "Red Orange-Green Blue, 2015" əsərləri sərgilənir. Azərbaycanlı rəssamın əsərləri yarmarkanın ziyarətçilərinin diqqətini cəlb edib.

"YAY Gallery"nin daha iki üzvünün - Reza Hazare və Almagul Menlibayevanın əsərləri də "Grand Palais"də təşkil olunmuş yarmarkada nümayiş olunur.

"YAY Gallery"nin stendi 5 ildən az bir müddətdə fəaliyyətə başlayan perspektivli qalereyalara həsr edilmiş "Promesses" sektorunda yerləşir.

Yarmarkada 20-yə qədər ölkəni təmsil edən 143 qalereya iştirak edir. Azərbaycan, Kolumbiya və İran bu sərgi-yarmarkada ilk dəfə təmsil olunur.

Aprelin 3-dək davam edəcək sərgi-yarmarka zamanı hər axşam "Grand Palais"nin fasadında rəqəmsal incəsənət əsərləri təqdim edilir.

*Şəhla AĞALAROVA,*
*AZƏRTAC-ın xüsusi müxbiri*

*Paris*